# Türkiyəli ekspert: COP29-un qərarları ekoloji sahədə daha cəsarətli addımların əsası ola bilər - MÜSAHİBƏ

Türkiyənin Sabancı Universitetinin iqlim tədqiqatları üzrə əlaqələndiricisi, elmlər doktoru Ümit Şahin AZƏRTAC-a müsahibəsində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı gözləntilərini bölüşüb.

**- Paris Sazişinin tələbləri, COP28 və Gələcək Paktının qərarları fonunda beynəlxalq ictimaiyyət tərəfindən atılan bütün addımlara baxmayaraq, ekoloji sahədə qlobal əməkdaşlıq yoxdur. Dövlətlər öz öhdəliklərini yerinə yetirməyi gecikdirir. Sizcə, COP29 platforması bizə vəziyyəti dəyişməyə və bəşəriyyət üçün sıçrayış nöqtəsinə çevrilməyə imkan verəcəkmi?**

- BMT-nin bundan əvvəl Dubayda keçirilən iqlim konfransı (COP28) zamanı ilk dəfə olaraq qazıntı yanacaqları qlobal istiləşmənin əsas səbəbi kimi tanınıb. Eyni zamanda, COP28-in yekun sənədində mədən yanacağı istehlakının azaldılması zərurəti öz əksini tapıb. Qazıntı yanacağı istehsal edən bir ölkədə təşkil edilən konfrans zamanı belə bir qərarın qəbul edilməsi əlamətdardır.

Eyni zamanda, fakt budur ki, enerji şirkətlərinin lobbiləri dövlətlərin ekoloji öhdəliklərinin icrasını ləngidir. Baxmayaraq ki, 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrindən enerji istehsalının üç dəfə artırılması, eləcə də Beynəlxalq Enerji Agentliyinin 2023 və 2024-cü illərdə külək və günəş enerjisi gücündə rekord artıma dair hesabatları yaxın illərdə bu yanacaqdan istifadənin sona çatdırılmasını proqnozlaşdırmağa hər cür əsas verir.

Belə görünür ki, COP29 çərçivəsində sıçrayışlı addım 2050-ci ilə qədər qazıntı yanacaqlarından tamamilə imtina etmək qərarı ola bilər. Belə bir addım enerji şirkətlərinin yaxın gələcəkdə digər fəaliyyət sahələrinə keçməsinə siqnal olacaq və dövlətlər ətraf mühitin mühafizəsi məsələlərində daha qətiyyətli addımlar üçün əsaslar əldə edəcəklər.

Bakıda keçiriləcək COP29 həm də iqlim maliyyəsi sahəsində mühüm qərarların qəbulu üzrə mühüm platforma olacaq. Üstəlik, məsələ "Yeni Kollektiv Kəmiyyət Hədəfi" ilə bağlı razılaşma ilə məhdudlaşmamalıdır. İnkişaf etməkdə olan ölkələr üçün illik maliyyə ən azı 1 milyard dollara qədər artırılmalıdır. Bunun COP29-da ən çox müzakirə edilən məsələlərdən biri olacağı gözlənilir.

Əgər iqlimin maliyyələşdirilməsi artırılsa, eləcə də təbii fəlakətlər nəticəsində yaranan itki və zərərin uyğunlaşma və kompensasiya üzrə effektiv mexanizmi yaradılsa, həmçinin dövlətlərin təmənnasız əsasda töhfə verdikləri təqdirdə iqlim gündəliyi ilə bağlı bir çox problemlər aradan qalxa bilər. Beləliklə, 2025-ci ildə dövlətlər daha iddialı NDCs-ləri - İqlim Dəyişikliyi ilə Mübarizə üçün Milli Səviyyədə Töhfələri dərc edə bilər.

Bu baxımdan, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın qazıntı yanacağı hasil edən dövlətləri iqlim maliyyəsi donorları sırasına daxil etmək təşəbbüsü xüsusilə əhəmiyyətli görünür.

**- Çoxsaylı iqlim sazişlərində iştirakı və aktiv ekoloji siyasətləri sayəsində Türkiyə haqlı olaraq ətraf mühitin mühafizəsi sahəsində aparıcı ölkələr sırasında yer alır. Eyni zamanda, Ankaranın 2053-cü ilədək istixana qazı emissiyalarını sıfra endirmək məqsədindən çox uzaq olduğunu qəbul etmək lazımdır. COP29 Türkiyəni bu məqsədə yaxınlaşdıra bilərmi?**

- Türkiyənin hazırladığı ilk və yenilənmiş NDCs-ə atmosferə emissiyaların azaldılması ilə bağlı real öhdəliklər daxil edilməyib və buna görə də "qeyri-kafi" olub. 2025-ci ildə Ankara daha bir oxşar sənədi dərc etməyi planlaşdırır (NDC 3.0).

Qarşıdan gələn NDCs-də 2053-cü ilə qədər emissiyaların sıfırlanması hədəfi nəzərə alınmalı və buna görə də 2035-ci ilə qədər olan dövr üçün havanın çirklənməsinin azaldılması öhdəliyi daxil edilməlidir. Bundan əlavə, sənəddə kömürdən istifadənin mərhələli şəkildə dayandırılması üzrə addımların rəsmi cədvəli əks olunmalıdır.

Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyi bu yaxınlarda ölkənin bərpaolunan enerji mənbələri sahəsində yenilənmiş proqramını elan edib. Bu proqram 2035-ci ilə qədər külək, günəş və su elektrik stansiyalarının gücünün dörd dəfə artırılmasını nəzərdə tutur. Bu, çox mühüm hədəfdir. Kömür istehlakının mərhələli şəkildə dayandırılması, habelə sənaye və nəqliyyat üçün güclü ekoloji hədəflərin inkişafı ilə birlikdə Türkiyədə havanın çirklənməsinin sürətlə azalacağını görəcəyik. Ölkəmiz mədən yanacağı yataqları ilə deyil, bərpaolunan enerji mənbələri ilə zəngindir. Eyni zamanda, Türkiyə iqtisadiyyatı bərpaolunan enerjinin inkişafı üçün müvafiq potensiala malikdir.

COP29 bütün dövlətlərin cəsarətli addımları, eləcə də iqlim maliyyəsinin genişləndirilməsi üçün əsas ola bilər və olmalıdır. Əminəm ki, Bakıda keçiriləcək iqlim müzakirələri Türkiyənin iqlim siyasətinin təkmilləşdirilməsinə də töhfə verəcək.

**- İqlim problemlərinin həlli yollarına dair sizə məxsus olan təşəbbüs və ideyaları bölüşərdiniz və bu barədə ictimaiyyətə məlumat verərdiniz. Sizcə, ekologiyanın yaxşılaşdırılmasında universitetlərin və qeyri-hökumət təşkilatlarının rolu nədən ibarətdir?**

- Son illərdə ekoloji gündəliyin aktuallığı artıb. İnsanlar ekoloji problemlərə daha çox maraq göstərirlər. Bütün bunlar ondan irəli gəlir ki, cəmiyyətlər iqlim böhranının nəticələrini daha güclü hiss etməyə başlayıblar.

İndiki inkişaf mərhələsində bütün ölkələr artan təbii fəlakətlərin və anomal temperaturun nəticələri ilə üzləşməyə başlayıblar.

Aydın oldu ki, iqlim dəyişikliyi ilə mübarizə səyləri ölkələrə öz iqtisadiyyatlarını şaxələndirməyə və yeni texnologiyalar tətbiq etməyə imkan verir ki, bu da məşğulluğu artırır, həmçinin iqtisadi inkişafa təkan verir.

Bu prosesdə ali təhsil müəssisələri və QHT-lər ön sıralarda yer alır. Tədqiqat, modelləşdirmə və beynəlxalq əməkdaşlıq hökumətlərə iqlim dəyişikliyinə daha tez uyğunlaşmaq imkanı verir.

Bundan əlavə, qeyri-hökumət təşkilatları və fəallar digər ölkələrin ekoloji strukturları ilə "dialoq körpüsü"nə çevrilirlər ki, bu da COP qərarlarına müsbət təsir göstərir. Bunun bariz göstəricisi Paris Sazişinin mətninə qlobal temperaturun 1,5 dərəcə Selsi ilə məhdudlaşdırılması məqsədinin daxil edilməsi oldu.

Mədən yanacaqlarının mərhələli şəkildə ləğv edilməsinə dair qərarla bağlı müzakirələr də ilk dəfə olaraq elmi ictimaiyyət və ictimai təşkilatlar tərəfindən başladılıb. Ona görə də universitetlərə və QHT-lərə fəaliyyət göstərmək üçün daha geniş imkanların yaradılması vacibdir.

İqlim dəyişikliyi ilə mübarizə üçün sürətli addımların atılmasına dair təşəbbüslərə gəlincə, onları aşağıdakı ardıcıllıqla sıralamaq olar:

Birincisi, yeni neft və qaz yataqlarının axtarışı üçün lisenziyaların ləğvi və 2050-ci ilə qədər mədən yanacaqlarından istifadənin sona çatmasına səbəb olacaq davam edən kəşfiyyat işlərinin dayandırılması. Kömürlə işləyən yeni elektrik stansiyalarının tikintisinə qadağa;

İkincisi, bütün dövlətlər 2035-ci ilə qədər hava emissiyalarını azaltmaq üçün aydın öhdəliklər dərc etməlidir;

Üçüncüsü, inkişaf etmiş ölkələr 2030-cu ilə qədər kömürlə işləyən elektrik stansiyalarını bağlamalı, inkişaf etməkdə olan ölkələr isə 2040-cı ilə qədər analoji addım atmalıdır;

Dördüncüsü, 2050-ci ilin birinci yarısına qədər olan dövrdə həm elektrik enerjisi istehsalı, həm də isitmə üçün təbii qazdan istifadənin mərhələli şəkildə dayandırılması üçün tədbirlər görmək;

Beşincisi, 2030-cu ildən başlayaraq sırf elektrik enerjisi və ya yaşıl hidrogenlə işləyən avtomobillərin satışına başlanılması. 2050-ci ilə qədər daxiliyanma mühərriklərindən tamamilə imtina edilməsi;

Altıncısı, xüsusilə polad və sement sektorlarında 2050-ci illərin əvvəllərinə qədər karbon qazı emissiyalarını aradan qaldıracaq yaşıl texnologiyaların fəal şəkildə tətbiqi;

Nəhayət, mədən yanacağı sektoruna dövlət dəstəyinin dayandırılması.

**Ramin Abdullayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2024, 4 noyabr**